**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**NAİBƏ MƏQSUD QIZI ŞAHMƏMMƏDOVA**

# RAMİZ MİRİŞLİ YARADICILIĞININ ÜSLUB XÜSUSİYYƏTLƏRİ

6213.01 – Musiqi sənəti

sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

*Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Musiqi tarixi” kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:** Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor
**Gülnaz Abutalıb qızı Abdullazadə**

**Rəsmi opponentlər:** sənətşünaslıq üzrə elmlər doktoru
**Cəmilə İsmayıl qızı Həsənova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Sonaxanım Qulamrza qızı İbrahimova**

**Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Musiqi fənləri və onun tədrisi metodikası” kafedrası**

Müdafiə «_15___» yanvar 2016-cı ildə saat 14:00da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» dekabr 2015-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent **H.V.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ XASİYYƏTNAMƏSİ

**Mövzunun aktuallığı.** Görkəmli bəstəkar, Azərbaycan Respublikasının xalq artisti, professor Ramiz Mirişli (1934-2015) özünəməxsus yaradıcılıq dəst-xəttinə malik sənətkar kimi Azərbaycan musiqi mədəniyyətində layiqli yer tutmuşdur. Ramiz Mirişlinin yaradıcılığının dərin kökləri Azərbaycanla, onun mədəniyyəti və folkloru, təbiəti və doğma musiqi ənənələri ilə sıx bağlıdır. Bəstəkarın əsərləri Vətənimizin keçmişi və bu günü, insanların həyatı və taleyi haqqında həyəcanlı düşüncələr kimi qəbul edilir. R.Mirişlinin musiqisi üçün səciyyəvi olan nikbinliyin, humanizmin, yüksək əxlaqın, igidliyin köklərini doğma incəsənətin dərinliklərində axtarmaq lazımdır. Onun yaratdığı epik-qəhrəmani, lirik və dramatik obrazlar məhz Azərbaycan xalq musiqisinin köklərindən qidalanmışdır.

Bəstəkarın yaradıcılıq yolu – Azərbaycanda peşəkar musiqi mədəniyyətinin banisi Üzeyir Hacıbəylinin yaradıcılığında əsası qoyulmuş ənənələrin, dünya musiqi klassikasının təcrübəsinin üzvi mənimsənilməsi və fəal surətdə həyata keçirilməsi yoludur.

R.Mirişlinin musiqisi üçün ifadə vasitələrinin ciddi seçimi, əhəmiyyətli bədii süjet, aydınlıq, inkişaf xətlərinin dəqiqliyi, dinamiklik səciyyəvidir. R.Mirişli xalq musiqisi ilə çox yaxından bağlı olan sənətkardır və onun dərinliklərində yüksək bədii nümunələr, tükənməz yaradıcılıq ideyalar tapır. Uzunmüddətli yaradıcılıq axtarışları prosesində bəstəkar orijinal kompozisiya strukturlarını tapmış, klassik musiqinin möhkəm ənənələrilə xalq musiqisinin (tematizm, formalaşma, instrumentalizm) qanunauyğunluqlarının üzvi sintezinə nail olmuşdur.

Qeyd etməliyik ki, böyük inkişaf yolu keçmiş Azərbaycan bəstəkarlıq məktəbinin ayrı-ayrı nümayəndələrinin yaradıcılığı müxtəlif aspektlərdən öyrənilsə də, hələ də bu sahədə müəyyən boşluqlar qalmaqdadır. Müasirlərimiz olan bir çox bəstəkarlarımızın yaradıcılığı lazımınca tədqiq edilməmiş, Azərbaycan musiqi mədəniyyətinə verdiyi töhfələr elmi-nəzəri səviyyədə araşdırılmamışdır. Bu baxımdan Ramiz Mirişlinin yaradıcılığının, onun özünəməxsus bəstəkarlıq üslubunun təhlilinin zəruriliyi önə çıxır. Xüsusilə onun milli köklərə əsaslanan özünəməxsus üslubunun elmi-nəzəri səviyyədə araşdırılmasına ehtiyac duyulur.

Müraciət etdiyimiz mövzunun aktuallığı da məhz Azərbaycan xalq musiqisinə, muğam sənətinə dərin köklərlə bağlı olan və bu zəngin xəzinədən yaradıcılıqla bəhrələnən R.Mirişlinin bədii üslubunun özünəməxsusluğundan irəli gəlir. Dissertasiyada Azərbaycanın musiqi mədəniyyətinin inkişafının ümumi mənzərəsi fonunda R.Mirişlinin yaradıcılıq üslubunun təkamülünün

izlənilməsi, əsərlərinin bədii konsepsiyası ilə musiqi vasitələrinin qarşılıqlı əlaqəsinin araşdırılması aktual bir məsələ kimi qarşıya qoyulur.

**Mövzunun işlənmə dərəcəsi.** Ramiz Mirişlinin yaradıcılığı daim musiqi ictimaiyyətinin təqdirinə layiq görülsə də, musiqişünaslıqda o qədər də geniş tədqiq olunmamışdır. Həmçinin, bəstəkarın yaradıcılığı bu günə qədər kompleks xarakterli elmi-nəzəri tədqiqat səviyyəsində az araşdırılmışdır. Bununla belə, onun yaradıcılığında əldə etdiyi nailiyyətlər, ayrı-ayrı əsərləri ilə bağlı elmi təhlillər praktiki əhəmiyyəti ilə seçilən bir sıra tədqiqatlarda – dissertasiyalarda, broşura və elmi-publisistik məqalələrdə öz əksini tapmışdır.

Bu baxımdan bəstəkarın yaradıcılığına həsr olunmuş bir neçə elmi işləri göstərə bilərik. Bunlardan musiqişünas Ramiz Zöhrabovun "Bəstəkarlarımız haqqında söz" kitabında "Mahnılar... Mahnılar..." məqaləsini[1] qeyd etmək istərdik. Burada bəstəkarın yaradıcılıq yolunun mərhələləri və əsas sahələri maraqlı faktlarla işıqlandırılmış, onun vokal yaradıcılığının diqqətəlayiq cəhətləri önə çəkilmişdir.

Ramiz Mirişlinin yaradıcılığının öyrənilməsində sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Güllü İsmayılovanın rolunu xüsusi qeyd etmək lazımdır. Onun "Bəstəkar Ramiz Mirişli" monoqrafiyası [2] bəstəkarın yaradıcılığının araşdırılmasına həsr olunmuş ilk xüsusi tədqiqatdır. Monoqrafiyada bəstəkarın yaradıcılıq sahələri ətraflı təhlil edilir və maraqlı elmi-nəzəri qənaətlərə gəlinir. Həmçinin, G.İsmayılova "Azərbaycan bəstəkarlarının mahnılarının lad-məqam əsası" mövzusunda namizədlik dissertasiyasının bir bölməsini R.Mirişlinin mahnı yaradıcılığına həsr edərək, onların lad əsası baxımından təhlilini aparmışdır.

İmruz Əfəndiyevanın "Азербайджанская советская песня" ("Azərbaycan sovet mahnısı") adlı tədqiqatında XX əsrin II yarısında Azərbaycanda mahnı janrının inkişafında digər bəstəkarlarla yanaşı, Ramiz Mirişlinin xidmətlərini qeyd etmişdir[3]. Ceyran Mahmudova "Mahnının qoşa qanadı – poeziya və musiqi" monoqrafiyasında[4] Ramiz Mirişlinin mahnı yaradıcılığına xüsusi məqalə həsr edərək, bir sıra mahnıların timsalında şeirlə musiqinin vəhdətini qabarıq göstərmişdir.

Gövhər Hüseynovanın "Ramiz Mirişlinin tar ilə simfonik orkestr üçün

---

[1] Zöhrabov R.F. Mahnılar... Mahnılar... // Bəstəkarlarımız haqqında söz. I kitab. Bakı, Şur, 1995. s.76-80.

[2] İsmayılova G.H. Bəstəkar Ramiz Mirişli. Bakı, 2000. 71 s.; İsmayılova G.H. Azərbaycan bəstəkarlarının mahnılarının lad-məqam əsasları. Sənətşünaslıq namizədi... diss.. avtoreferatı. Bakı, 2003.

[3] Эфендиева И.М. Азербайджанская советская песня. Б.: 1983.

[4] Mahmudova C.E. Mahnının qoşa qanadı – poeziya və musiqi. Bakı, 2013.

Konserti”[5] bəstəkarın bu əsərinin ən geniş təhlilini verən tədqiqat kimi diqqəti cəlb edir. Leyla Həsənovanın “XX əsr Azərbaycan musiqisində tar ilə simfonik orkestr üçün konsert: janr və üslub cizgiləri”[6] mövzusunda namizədlik dissertasiyasında Ramiz Mirişlinin Tar Konsertinə həsr olunmuş bölmədə irəli sürülən problem çərçivəsində əsərin kompozisiya xüsusiyyətləri tədqiq edilmişdir. R.Mirişlinin Tar Konsertinin ifaçılıq təfsirinə həsr olunmuş Ramiz Quliyevin metodik tövsiyələrini[7] də qeyd etməliyik. Zəminə Nəcəfovanın “Azərbaycan bəstəkarlarının yaradıcılığında xalq çalğı alətləri orkestri üçün süita janrı” mövzusunda namizədlik dissertasiyasının bölmələrində[8] və ayrı-ayrı məqalələrində Ramiz Mirişlinin xalq çalğı alətləri orkestri üçün süitaları təhlil olunmuşdur.

Bu elmi materiallardan əlavə, mətbuat səhifələrində R.Mirişlinin həyat və yaradıcılığı ilə bağlı bir sıra jurnalist məqalələrini göstərə bilərik.

**Dissertasiyanın məqsədi** Ramiz Mirişlinin yaradıcılığının tədqiqata cəlb olunaraq, üslub xüsusiyyətləri baxımından öyrənilməsindən ibarətdir. Bu məqsəddən irəli gələrək, dissertasiya işində aşağıdakı **vəzifələr** irəli sürülür və onların həlli qarşıya qoyulur:

R.Mirişlinin formalaşdığı mədəni mühitin səciyyəvi cəhətlərinin araşdırılması və onun yaradıcılığında rolunun göstərilməsi;

R.Mirişlinin yaradıcılığının inkişaf mərhələlərinin tədqiqi; R.Mirişlinin əsərlərinin mövzu dairəsi və janr rəngarəngliyi baxımından təhlili;

Bəstəkarın yaradıcılığının bütün sahələrini araşdırmaq, bu prosesdə onun əsərlərini milli musiqi kontekstində tədqiq etmək;

Bəstəkarın özünəməxsus yaradıcılıq xüsusiyyətlərini və dəst-xəttini aşkarlamaq və elmi-nəzəri səviyyədə ümumiləşdirməkdən ibarətdir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq, Ramiz Mirişlinin yaradıcılığı hərtərəfli tədqiq edilmiş, əsərlərinin musiqi dili və bəstəkarın üslub xüsusiyyətləri açıqlanmışdır. R.Mirişlinin musiqişünaslıqda öyrənilməmiş bir sıra əsərləri ilk

---

[5] Hüseynova G.Q. Ramiz Mirişlinin tar və simfonik orkestr üçün konsertinin bəzi üslub və janr xüsusiyyətləri // “Musiqi dünyası” jurnalı, № 1-2 (7) 2001. s. 154-159.

[6] Həsənova L.M. XX əsr Azərbaycan musiqisində tar ilə simfonik orkestr üçün konsert: janr və üslub cizgiləri. Sənətşünaslıq nam...diss... avtoreferatı. Bakı, 2008.

[7] Quliyev R.Ə. R.Mirişlinin Tar ilə simfonik orkestr üçün Konserti. Metodik tövsiyələr. Bakı, 1990.

[8] Nəcəfova Z.M. Azərbaycan bəstəkarlarının yaradıcılığında xalq çalğı alətləri orkestri üçün süitalar. Sənətşünaslıq nam… diss. Avtoreferatı. Bakı, 2009. 27 s.; Nəcəfova Z.M. Ramiz Mirişlinin “Azərbaycan” süitası. // “Musiqi dünyası” jurnalı, 1-2 (35), 2008. S. 119-125.; Nəcəfova Z.M. Ramiz Mirişlinin «Odlar yurdu» süitası. // “Musiqi dünyası” jurnalı, № 3-4 (37), 2008. s. 170-171.

dəfə olaraq tədqiqata cəlb olunmuşdur:

– bəstəkarın müxtəlif janrlı instrumental və vokal əsərləri təhlil edilmiş;

– yaradıcılığının mövzu dairəsi, janr xüsusiyyətləri, musiqi dili ilə bağlı tapıntılar;

– xalq musiqisinə və muğama yaradıcı münasibəti, bunun nəticəsində meydana gələn yeni cəhətlər üzə çıxarılmışdır;

– klassik və müasir musiqinin bəstəkarlıq üsullarının, Azərbaycan xalq musiqisindən istifadə prinsiplərinin bəstəkarın musiqi dilinə təsiri nəticəsində musiqi üslubunun yeniləşməsi;

– melos, intonasiya və ritmikanın rolu araşdırılaraq üzə çıxarılmışdır.

Ramiz Mirişlinin müxtəlif janrlarda yazdığı əsərlərinin bədii keyfiyyətləri, onun yenilik axtarışları, xalq musiqisi və muğam ənənələrindən bəhrələnməsi sayəsində yaranan musiqi dilinin xüsusiyyətlərinin araşdırılması ilk dəfə olaraq, dissertasiya işi səviyyəsində həyata keçirilmişdir.

**Dissertasiyanın metodoloji əsası.** Dissertasiyanın metodoloji əsasını musiqi nəzəriyyəsi ilə bağlı tədqiqatlar, musiqişünas alimlərin nəzəri müddəaları təşkil edir. Tədqiqat prosesində nəzəri musiqişünaslıqda qəbul olunmuş təhlil metodlarından, o cümlədən, tarixi-nəzəri və müqayisəli təhlil metodundan istifadə edilmişdir. Bu məqsədlə Azərbaycan musiqişünaslarının elmi yaradıcılığına müraciət edilir, musiqi mədəniyyətinin, bəstəkarlıq sənətinin inkişaf yolları nəzərdən keçirilir.

Azərbaycan musiqişünaslarının – Üzeyir Hacıbəylinin, Məmmədsaleh İsmayılovun, Ramiz Zöhrabovun, İmruz Əfəndiyevanın, Solmaz Qasımovanın, Gülnaz Abdullazadənin, Zemfira Qafarovanın, Ceyran Mahmudovanın, Cəmilə Həsənovanın, Şəhla Həsənovanın, Leyla Həsənovanın, Güllü İsmayılovanın, Zəminə Nəcəfovanın və başqalarının Azərbaycan musiqisinə, bilavasitə xalq musiqisi və bəstəkar yaradıcılığına həsr olunmuş tədqiqatları dissertasiyanın metodoloji bazasına çevrilmiş, işdə bütün bu musiqişünasların elmi müddəalarından bir mənbə kimi istifadə olunmuşdur.

**Tədqiqatın obyektini** Ramiz Mirişlinin yaradıcılıq sahələrinin araşdırılması və qaynaqlarının, özünəməxsus cəhətlərinin öyrənilməsi, bəstəkarın xalq musiqisi mənbələrinə münasibətinin üzə çıxarılması təşkil edir.

**Tədqiqatın predmetini** Ramiz Mirişlinin yaradıcılığında müxtəlif janr və formalı vokal və instrumental əsərlərin öyrənilməsi, musiqi dilinin xüsusiyyətlərinin aşkarlanması baxımından təhlili, bəstəkarlıq üslubunun formalaşması prosesində milli musiqinin qanunauyğun cəhətlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın materialını** Ramiz Mirişlinin müxtəlif illərdə yazılmış və çap olunmuş vokal və instrumental əsərləri təşkil etmişdir: Mahnı və

romanslar, Fortepiano üçün prelüdlər, Fortepiano üçün 6 miniatür, Simli alətləri orkestri üçün Simfoniya, Tar və simfonik orkestr üçün Konsert, Xalq çalğı alətləri orkestri üçün Konsert, Simfonik poema "Vətən düşüncələri" və simfonik orkestr üçün "Azərbaycanım" Kantatası

**Dissertasiyanın elmi-təcrübi əhəmiyyəti.** Tədqiqatın materiallarından, əldə edilmiş elmi müddəalardan gələcək elmi işlərdə, tədqiqat və mühazirələrdə, seminarlarda istifadə edilə bilər. Xüsusilə ali və orta ixtisas məktəblərinin nəzəri və praktiki kurslarında – "Azərbaycan musiqi tarixi" və s. habelə elmi biliklərin populyar şəkildə yayılması işində faydalı ola bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında yerinə yetirilmiş və müzakirə olunmuşdur. Tədqiqatın əsas müddəaları müəllifin elmi konfranslarındakı çıxışlarında, yerli və xarici elmi məcuələrdə çap olunmuş bir sıra məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, 6 yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat və notoqrafiya siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

**Dissertasiyanın I fəsli "Ramiz Mirişlinin həyat və yaradıcılığı"nın araşdırılmasına həsr olunmuşdur. Bu fəsil üç bölmədən ibarətdir. Birinci bölmə (1.1.) "Ramiz Mirişlinin yaradıcılığına bir baxış" adlanır.** Ramiz Mirişli çoxcəhətli yaradıcılığa və özünəməxsus musiqi üslubuna malik olan bəstəkardır. O, yaradıcılığı boyu musiqinin bir sıra janrlarına müraciət edərək dəyərli əsərlər yaratmışdır.

R.Mirişli musiqi sənətinə kamança ifaçısı kimi gəlmiş, A.Zeynallı adına orta ixtisas musiqi məktəblərində bu ixtisas üzrə təhsil almışdır. Konservatoriyada oxuduğu illərdə (1957-1962) Azərbaycan Televiziyası və Radiosunun xalq çalğı alətləri orkestrində kamança qrupunda çalmışdır. Azərbaycan Dövlət Konservatoriyasında isə bəstəkarlıq üzrə görkəmli bəstəkar və pedaqoq Cövdət Hacıyevin sinfində təhsil almışdır. Bu da onun həm dünyagörüşünün genişliyini, həm də musiqi üslubunun təkmilləşməsini təmin etmişdir.

R.Mirişlinin yaradıcılığı geniş olub, musiqinin bir çox janrlarını əhatə edir. O, musiqili komediya, vokal-simfonik, simfonik orkestr, xalq çalğı alətləri orkestri üçün əsərlərin, kamera-instrumental və vokal əsərlərin müəllifidir.

Ramiz Mirişlinin yaradıcılığının mühüm və aparıcı sahəsini mahnı janrı təşkil edir. Yazdığı hər bir mahnı ilə milli musiqi xəzinəsinə yeni töhvələr verən sənətkar, Azərbaycan professional bəstəkarlıq məktəbinin mahnı janrında yazıb-yaradan nümayəndələrindən biridir. R.Mirişli şair İslam Səfərlinin sözlərinə yazdığı "Dalğalar" mahnısından sonra xalq arasında tanınaraq, mahnı janrında özünəməxsus səciyyəvi üsluba malik bir bəstəkar olduğunu sübut etdi. R.Mirişlinin "Oxu tar" (sözləri Mikayıl Müşfiqindir), "Azərbaycan dünyam mənim" (sözləri Məmməd Arazındır) və digər mahnılarında da özünü göstərən obrazlı məzmunu, məlahətli musiqi dili, ifadə vasitələrinin vəhdəti onları elə ilk ifadan yaddaşlarda həkk etdirmişdir.

R.Mirişlinin yaradıcılığında kamera-instrumental musiqi sahəsi fortepiano və digər alətlər üçün yazılmış əsərlərlə təmsil olunmuşdur. Bəstəkarın kamera-instrumental əsərləri sırasına fortepiano üçün prelüdlər, "Altı miniatür" silsiləsi, Sonatina, Fortepiano triosu, Kvartet aiddir. Bu əsərlərin əksəriyyəti R.Mirişlinin Konservatoriyada təhsil aldığı illərdə yaranmışdır. Lakin müstəqil yaradıcılıq dövründə də bəstəkar bu sahəyə diqqət yetirmiş, müxtəlif əsərlərlə bu sahəni zənginləşdirmişdir.

Bəstəkarın simfonik musiqi sahəsindəki yaradıcılığı daha genişdir. Onun əsərləri sırasında "Vətən düşüncələri" simfonik poeması, "Gənclik" simfonik poeması, Simli alətlər orkestri üçün Simfoniya, "Şəhidlər" simfoniyası, Tar ilə simfonik orkestr üçün Konsert, 3 Uvertüra və s. qeyd edə bilərik.

Bəstəkarın yaradıcılığının xüsusi bir sahəsini xalq çalğı alətləri orkestri üçün yazılmış əsərlər təşkil edir. R.Mirişli xalq musiqisinin, xalq çalğı alətlərinin incəliklərini gözəl duyan bəstəkarlardandır. O, xalq çalğı alətləri orkestri üçün üç konsert, on iki süita, üç uvertüra, musiqi lövhələri, miniatürlər yaratmışdır. Xüsusilə R.Mirişli xalq çalğı alətləri orkestri üçün Konsert və süita janrına çox diqqət yetirmiş, onun bu janrlarda rəngarəng mövzulu, maraqlı əsərləri musiqi xəzinəsinə daxil olmuşdur. Bütün bu əsərlər özünəməxsus keyfiyyətləri, janr və musiqi dilinin xüsusiyyətləri ilə fərqlənirlər.

Həmçinin bəstəkarın vokal-instrumental janrlarda əsərlərini qeyd etməliyik. Bu sırada bəstəkarın "Azərbaycanım", "Sən ucadan uca diyar", "Doğma diyar" "Odlar diyarı" kantatalarını, "Məşəl kimi yanan ürək" odasını, xor və simfonik orkestr üçün dörd süitanı göstərə bilərik.

R.Mirişlinin səhnə əsərləri sırasına 2 musiqili komediya və respublikanın müxtəlif teatrlarında tamaşaya qoyulan 40-dan artıq əsərə yazdığı musiqi aiddir. R.Mirişlinin ilk səhnə əsəri 1983-cü ildə Ş. Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında tamaşaya qoyulmuş "Qaçırılmış qız" musiqili komediyasıdır. İkinci bir səhnə əsəri İsi Məlikzadənin "Gəl, qohum olaq" musiqili komediyasıdır. Bu tamaşaların daha

təsirli, bədii obrazların daha inandırıcı olmasında R.Mirişlinin yaratdığı musiqinin böyük rolu vardır. Bəstəkarın mahnıvari üslubu bu əsərlərdə özünü aydın büruzə verir.

R.Mirişlinin dram əsərlərinə yazdığı musiqi maraqlı və özünəməxsus cəhətləri ilə seçilir. Ramiz Mirişli respublikanın teatrlarının səhnəsində oynanılan 40-dan çox tamaşaya musiqi yazmışdır. Azərbaycan Milli Akademik Dram Teatrında Qeybulla Rəsulovun "Qarabağ əfsanəsi", Gənc Tamaşaçılar Teatrında Əkrəm Əylislinin "Mənim nəğməkar bibim", Teymur Elçinin "Qar qız", İsi Məlikzadənin "Şadlıq olsun", Gəncə Dövlət Dram Teatrında Cəfər Cabbarlının "Almaz", eləcə də Sumqayıt, Lənkəran, Şəki, Mingəçevir Dövlət Dram teatrlarında səhnələşən bir çox tamaşalara musiqi yazmışdır.

Xüsusilə C.Məmmədqluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulan bir çox tamaşalara – Hüseyn Cavidin "Azər", "Ana" , Nazim Hikmətin "Bayramın birinci günü", Cəfər Cabbarlının "Aydın", Kəmalə Ağayevanın "Mənim tanrım gözəllikdir, sevgidir" və digər səhnə əsərlərinə Ramiz Mirişli gözəl və yaddaqalan musiqi bəstələmişdir. Bu musiqinin ayrı-ayrı parçaları, vokal və instrumental nömrələr bəstəkar tərəfindən müstəqil əsərlər kimi işlənilərək, ifaçıların repertuarına daxil olmuşdur.

Bəstəkarın C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında çəkilmiş bir sıra bədii filmlərə və cizgi filmlərinə yazdığı musiqini də qeyd etmək lazımdır. Bunlardan "Alma almaya bənzər", "Evdə kişi var", "Səhrasız gecə" bədii filmlərinin, "Tıq-tıq xanım", "Dost axtarıram", "Kirpi və alma" cizgi filmlərinə yazılmış musiqi tamaşaçıların yaddaşına həkk olunmuşdur.

Ramiz Mirişlinin teatr və kino musiqisində zəngin və rəngarəng melodiyalar vasitəsilə obrazların daxili aləmi açılır və iştirakçıların müxtəlif əhval-ruhiyyələri canlandırılır. Məhz bunun üçün də tamaşaların və filmlərin obrazlarının musiqi xarakteristikası gah lirik mahnı-romans, gah şux oynaq mahnı-rəqs, gah da məzəli mahnı səciyyəsində olur.

R.Mirişlinin əsərlərini, bəstəkarın yaradıcılığında onların yerini, mövzu dairəsini və janr xüsusiyyətlərini xarakterizə edərkən, ilk növbədə, mövzu baxımından bir neçə böyük şaxəni göstərmək olar. Hər bir şaxə özlüyündə bir çox janrlarla – kiçik həcmli miniatürlərdən tutmuş iri həcmli kompozisiyalara kimi rəngarəng səpkili əsərlərlə təmsil olunur.

Bu baxımdan ilk növbədə, Vətən, vətənpərvərlik mövzusunun bəstəkarın yaradıcılığındakı rolunu və əhəmiyyətini qeyd etmək lazımdır. R.Mirişlinin əsərlərinin əksəriyyəti bu mövzuya həsr olunmuş və onların adlarında öz əksini tapmışdır: "Azərbaycanım", "Sən ucadan uca diyar", "Doğma diyar" "Odlar diyarı" kantatalarını, "Məşəl kimi yanan ürək"

odasını xüsusi qeyd etmək olar. Bu qəbildən olan R.Mirişlinin "Vətən düşüncələri" simfonik poeması da emosional baxımdan zəngin və dolğun, lirik, iradəli və güclü obrazlara malik bir əsərdir. Bu əsər öz işıqlı obrazları ilə dinləyicini valeh edir. Bu, Vətən haqqında bəstəkarın fəlsəfi baxışlarından doğan bir münasibətdir, burada xalqımızın qəhrəmanlıq tarixi yüksək duyğularla, fəlsəfi yozumda tərənnüm olunur.

R.Mirişlinin xalq çalğı alətləri orkestri üçün yazdığı əsərlər sırasında da Vətən mövzuna həsr olunmuş çox sayda əsərləri qeyd etmək olar: "Azərbaycan" süitası, "Naxçıvan" musiqi lövhələri, "Odlar yurdu" süitası və s. bu qəbildəndir.

R.Mirişlinin yaradıcılığında Vətən mövzusunun bir istiqaməti də müstəqil Azərbaycan tarixinin qanlı səhifələrinin təcəssümü Şəhidlik mövzusu ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan bəstəkarlarının yaradıcılığında Qarabağ müharibəsinə, Vətən uğrunda şəhid olmuş igidlərə həsr olunmuş əsərlər xüsusi yer tutur. Bu sırada R.Mirişlinin "Şəhidlər" simfoniyasında müəllifin bu mövzuya özünəməxsus münasibəti öz təcəssümünü tapır. Bu əsərdə xalqın haqq işinin ölməzliyinə, əbədiliyinə inam hissi özünü qabarıq göstərir. Bəstəkar mövzunun və obrazların açılması, xalqın faciəsini dərinliyinə kimi ifadə etmək üçün müasir musiqi ifadə vasitələrindən özünəməxsus tərzdə istifadə etmişdir. Əsərdə müəllifin şəxsiyyəti, fərdi üslub xüsusiyyətləri, faciəni dərindən duyan və dərk edən bəstəkarın sənətkarlığı özünü qabarıq büruzə verir.

R.Mirişlinin musiqi yaradıcılığında xüsusi bir xətt lirik mövzu ilə bağlı olub, müxtəlif cəhətlərdən təzahür edir: ən dərin lirik hisslərin təcəssümü, insanlara sevgi və İlahi məhəbbət kimi. Bu mövzu R.Mirişlinin vokal-simfonik, orkestr və vokal əsərlərində öz əksini tapmışdır.

R.Mirişlinin yaradıcılığında diqqəti cəlb edən əsas mövzulardan biri - uşaq tematikasına müraciət, uşaq dünyasının tərənnümü və uşaqlar üçün yazılmış əsərlərlə bağlıdır. Bəstəkar uşaq mövzusunda və uşaqlar üçün ən müxtəlif janrlı əsərlər fortepiano pyesləri, mahnılar və s. bəstələmişdir.

R.Mirişlinin uşaq mövzusuna həsr etdiyi əsərlər sırasında uşaq mahnıları da xüsusi yer tutur. "Kosmonavtam", "Gəl ay sığırçın", "Kəpənək", "Qar yağır", "Anama", "Təbiət haqqında mahnı" – kiçik yaşlı uşaqlar, "Ucalsın nəğməmiz", "Dağlar çağırır", "Pioner mahnısı", "Gurla, şeypurum, gurla" – məktəblilər, "Günay", "Nazlı qız" mahnıları, "Analar və laylalar" silsiləsi böyüklər üçün yazılmış uşaq mahnılarıdır. R.Mirişlinin uşaq mahnıları yaddaqalan olub, uşaq repertuarında ən çox sevilən nümunələrdir. Bu mahnılar uşaq təxəyyülünün genişləndirilməsi, onların ətraf aləmlə,

əşyalarla, təbiət hadisələri ilə tanışlığı baxımından maraqlı olmaqla yanaşı, həm də tərbiyəvi əhəmiyyətə malikdir.

Qeyd etmək lazımdır ki, R.Mirişlinin mahnı yaradıcılığı geniş məzmunu və mövzu dairəsinə görə diqqəti cəlb edir. Bu baxımdan onun mahnılarını bir neçə böyük qrupa ayırmaq olar. Bunlardan Vətən haqqında və Vətənin gözəlliklərini tərənnüm edən mahnılar, əmək qəhrəmanları haqqında mahnılar, lirik məhəbbət mahnıları və s. bu kimi məzmunlu mahnıları göstərə bilərik. Bu sıraya bəstəkarın son dövrdə yaratdığı dini mövzuda mahnıları da aid etmək olar.

Vətənin qüdrətini, gözəlliklərini, şəhərlərini, milli-mənəvi və maddi sərvətlərini tərənnüm edən, eləcə də gəncliyə müraciətlə yazılmış vətəni qorumaq çağırışını səsləndirən mahnılar - "Azərbaycan dünyam mənim", "Ana torpaq", "Əsgər andı", "Doğma diyarım", "Zaqatala", "Bakının gecəsi", "Dünya, gözəl dünyadır", "Naxçıvan təranəsi", "Qızlar bulağı" və s. aiddir.

Bəstəkarın əmək mahnıları təbiiliyi, səmimiliyi, emosional təsir gücü ilə seçilir. "Gülsarə" (sözləri M.Əliyevindir), "Qızqayıt" (sözləri R.Zəkanındır) və s. sadə zəhmət adamlarının əməyini tərənnüm etməklə, onların əməkdə göstərdiyi hünər və qəhrəmanlıqları xalqın qəlbində əbədiləşdirir.

Ramiz Mirişlinin lirik mahnıları xüsusilə fərqlənir. "Dalğalar", "Həyatım gəl", "Bulağa gəl", "Səni tapdım", "Bayram axşamları" mahnılarında sanki insanın duyğuları baharın ətrilə canlanır, yeni çiçəklənən məhəbbətin təravəti duyulur. F.Qocanın sözlərinə yazdığı "Səni sevən baxışlar", "Küsüb məndən", "Səni tapdım", "Yaman gözəlləşmisən", "Səndən danışdı", "Sənin bircə təbəssümün", "Ay qəlbi kövrək", "Bir xumar baxışla", "Azərbaycan gözəlləri", "Lirik mahnı", D.Mustafayevin sözlərinə yazdığı "İlk sevgi", "Dağlar qızı", "Sevgi gülləri", S.Rüstəmin sözlərinə "İnandım", N.Həsənzadənin sözlərinə "Dedi tələsmə", B.Vahabzadənin sözlərinə "Sənin vüqarın mənəm", R.Zəkanın sözlərinə "Səadət", A.Rəsulun sözlərinə "Nazlı qız" və s. mahnılar bəstəkarın gözəl lirik mahnılarındandır.

R.Mirişlinin mahnı yaradıcılığında təbiətin təsvirinə həsr olunmuş mahnılar da vardır. Bəstəkarın Məmməd Arazın sözlərinə yazdığı "Dünya, gözəl dünyadır", A.Babayevin sözlərinə "Söz qoşaq təbiətə", Hüseyn Cavidin sözlərinə "Bizim dağlar", Anarın sözlərinə "Xəzərə gözəl yaraşır", və s. mahnılarda Azərbaycan təbiəti və onun füsunkar gözəllikləri qəlb oxşayan bir tərzdə ifadə edilmişdir.

R.Mirişli öz mahnı yaradıcılığında Ana mövzusuna da müraciət edir. Ana mövzusu elə bir bəşəri mövzudur ki, o, incəsənətin bütün növlərinin mövzusuna çevrilmişdir. R.Mirişlinin İ.Coşqunun sözlərinə "Sən olmasay-

dın" və M.Arazın sözlərinə "Ana qəlbi" mahnıları bəstəkarın bu mövzuda yazdığı uğurlu nümunələrdir.

R.Mirişlinin yaradıcılığında "Oxu tar" (sözləri M.Müşfiqindir), "Nəsimi" (sözləri İ.Səfərlinindir), "Atalar" (sözləri M.Arazındır) və b. mahnı-balladaları qeyd etmək olar.

"Gənclik" mövzusuna bəstəkar R.Mirişli iri formalı əsərlərində olduğu kimi, mahnı yaradıcılığında da geniş yer verir. "Xoş səhərlə yaşayır" (Y.Həsənbəy), "Gənclik mahnısı" (F.Qoca) kimi nümunələrlə gəncliyə xas olan mənəvi keyfiyyətlər öz əksini tapır.

R.Mirişlinin mahnılarından bir neçəsi duet ifası üçün nəzərdə tutulmuşdur. Bu baxımdan, R.Mirişli ilk bəstəkardır ki, öz yaradıcılığında mahnı-duetə müraciət etmişdir. "Günəşi gözləyirik", "Səadət", "Xoş səhərlə yaşayır", "Ulduzlar", "Həyat söylə, sən kiminsən" duet-mahnılar ilk ifadan dinləyicilərin qəlbinə yol tapmışdır.

Mahnı janrı bəstəkarın başqa janrlarda yazdığı əsərlərə də sirayət etmişdir. Bu baxımdan, onun musiqili səhnə janrlarına müraciət edərək yazdığı dəyərli əsərlərdə bir sıra yaddaqalan mhnılar öz əksini tapmış və xalqın dilinə düşmüşdür. Xalq musiqisinin və bəstəkarlıq yazı texnikasının dərinliklərinə mükəmməl yiyələnən R.Mirişli müraciət etdiyi bütün janrlarda maraqlı mövzulara, ifadəli məzmuna üstünlük verir və bu əsərlərdə Ramiz Mirişli üslubunun özünəməxsusluğu özünü büruzə verir.

Ümumiyyətlə, R.Mirişli gözəl melodiya ustasıdır. Onun əsərləri parlaq və yaddaqalan melodiyalara malikdir. Bəstəkarın əsərlərinin intonasiya əsası Azərbaycan xalq mahnıları, aşıq havaları, muğam intonasiyaları ilə zəngindir. Onun yaradıcılığında Azərbaycan xalq mahnılarının melodiyaları da öz təzahürünü tapır. Bütün bu əsərlərdə üzə çıxan bəstəkarın yaradıcılıq üslubunu mahnıvari üslub kimi xarakterizə etmək olar, bu da onun bir tərəfdən, muğam sənətinə və xalq musiqisinə dərin bağlılığından, digər tərəfdən isə bəstəkarın mahnı janrına xüsusi marağından irəli gəlir.

R.Mirişlinin həm instrumental, həm də vokal əsərləri bir çox məşhur ifaçıların və musiqi kollektivlərinin repertuarına daxil olmuşdur. Həmçinin, gənc müğənnilərin ifasında böyük şövqlə səsləndirilir.

**I fəslin ikinci bölməsi (1.2.) – "R.Mirişlinin mahnı və romanslarının musiqi dilinin xarakterik cəhətləri" adlanır.** Bu bölmədə R.Mirişlinin vokal əsərlərinin – mahnı və romanslarının musiqi dilinin təhlili nümunəsində bəstəkarın musiqi üslubunun xüsusiyyətlərini daha dərindən araşdırmağı qarşımıza məqsəd qoymuşuq. Bununla, bu janrın bəstəkarın yaradıcılığındakı əhəmiyyətini göstərmək istəyirik. Bu baxımdan vokal

əsərlərin lad əsası, forma quruluşu, melodik və ritmik xüsusiyyətlər baxımından təhlilini aparmışıq.

Tədqiqat zamanı müəyyən bir ardıcıllıq olması üçün biz bəstəkarın mahnılarını mövzu və janr xüsusiyyətlərinə görə qruplaşdırıb təhlil etmişik: Vətən və vətənpərvərlik mahnıları, lirik mahnılar – ana-valideyn mövzusunda mahnılar və sevgi-məhəbbət mahnıları, əmək mahnıları - əmək qəhrəmanları haqqında mahnılar, uşaq mahnıları – uşaq dünyasını əks etdirən mahnılar. Fikrimizcə, bu cür qruplaşdırma bəstəkarın yaradıcılıq üslubunu daha dərindən araşdırmağa və musiqi dilinin xüsusiyyətlərini üzə çıxarmağa imkan verir.

Vətən və vətənpərvərlik mahnılarının parlaq nümunəsi - Məmməd Arazın sözlərinə yazılmış "Azərbaycan dünyam mənim" mahnısı ağır templi girişlə - vokal epizodla başlayır. Yüksək zirvədə səslənən melodiya çağırış xarakteri daşıyaraq, dinləyicinin diqqətini mahnının mətninə yönəldir. Melodiyanı daha qabarıq göstərmək üçün müəllif müşayiətdə şəffaf, akkordlu fakturadan istifadə etmişdir. Mahnının çağırış ruhlu vokal epizodla başlaması diqqətəlayiqdir. R.Mirişli Vətəni tərənnüm edən bu mahnısında şur ladından istifadə etmişdir. Bunun da kökü xalqımızın, vətənimizin qüdrətini tərənnüm edən aşıq yaradıcılığı və qəhrəmanlıq dastanlarımızla bağlıdır. Eyni zamanda, R.Mirişlinin haqqında danışdığımız mahnısının melodik quruluşu zildə səslənməsi ilə, çağırış intonasiyalarına əsaslanması ilə aşıq havalarını xatırladır. Mahnının bölmələrində şur ladının istinad pillələri ətrafında qurulan melodik hərəkət "Şur" muğamının intonasiyalarına və ümumilikdə muğamın şöbələri arasındakı münasibətlərə əsaslanır.

"Doğma diyarım" mahnısı Məmməd Arazın sözlərinə bəstələnmişdir. Mahnı musiqi formasına görə ikihissəlidir – kuplet və nəqarətdən ibarət olub, instrumental girişlə başlanır. Girişin musiqisi nəqəratın mövzusuna əsaslanır. Kuplet aşağı registrdə, nəqərat isə zildə yerləşir. Belə bir quruluş xüsusiyyəti təsnif janrından gələn cəhət olub, bəstəkarın mahnılarında tez-tez rast gəlinir.

"Naxçıvan təranəsi" mahnısı mülayim tempdə yazılıb və instrumental müqəddimə ilə başlayır. Onun melodiyası nəqaratın ikinci hissəsinin melodiyasından alınmışdır. Bu üsulun özü də xalq mahnılarından gəlir. Həmçinin, bu üsul vokal partiyanın müşayiəti zamanı da özünü göstərir. Mahnının əsas melodiyası şüştər intonasiyalarına əsaslanır. Mahnının kodasında vokal partiya zil səslərə əsaslanır və mahnı yüksək səsin uzadılması ilə bitir ki, bu da Vətəni tərənnüm edən mahnılar üçün xarakterikdir.

"Arazım" mahnısı şüştər ladına əsaslanır. "Naxçıvan təranəsi" mahnısında da kuplet tərkib əsasında, nəqərat isə mayeyi-şüştərin əsas intonasi-

yası əsasındadır. Ümumilikdə, mahnı mülayim tempdə, gözəl melodik çalarlarla Araz çayını tərənnüm edir.

"Vətənimsən" mahnısı gümrah, şən xarakterli musiqidən ibarətdir. Mahnı Azərbaycan xalq mahnı və rəqsləri üçün səciyyəvi olan 6/8 ölçüsündə yazılmışdır. Mahnı lad etibarilə çox maraqlıdır. Bəstəkar çox sevdiyi segah məqamına əsaslanır. Mahnının nəqəratında lad dəyişkənliyi, yönəlmə yaranır və mayeyi-şüştərin mayəsinə kadans verilir. Nəqəratın ikinci bölməsində yenidən mayeyi-segaha keçilərək melodiya bu ladda tamamlanır.

"Əsgər andı" (sözləri Məmməd Arazındır) mahnısı vətənpərvərlik ruhlu, vətəni qoruyan əsgərləri tərənnüm edən mahnıdır. Mahnının məzmunundan irəli gələrək, "Əsgər andı" mahnısı marş ritmində bəstələnmişdir. Bu ritm bütün mahnı boyu ostinat şəkildə saxlanılır və əsgərlərin dəqiq addımlarla addımlamasını əks etdirir. Mahnının iki xanəlik instrumental girişi sanki şeypurun çağırış intonasiyalarını təcəssüm etdirir və mahnının qəhrəmanlıq əhval-ruhiyyəsini canlandırır.

"Oxu tar" mahnısı xalqımızın milli-mənəvi dəyərlərindən biri olan tar musiqi alətinin tərənnümünə həsr olunmuşdur. Mahnının musiqi dilində bir sıra diqqətəlayiq cəhətlər var ki, bunlar tar – muğam ifaçılığından gəlir. Mahnının instrumental girişində bunun qabarıq təcəssümünü görürük. Artıq ilk xanələrdən tarın mizrablarını xatırladan gedişlər öz təcəssümünü tapır.

Qeyd etmək lazımdır ki, bu mahnı iki ifaçı üçün – alt və tenor səsli müğənnilər üçün nəzərdə tutulub. Birinci hissə altın ifasında, ikinci hissə baritonun ifasında səslənir. Belə ifaçı tərkibi Aəzrbaycan bəstəkarlarının yaradıcılığında az təsadüf olunur. İkinci hissə isə tenorun ifasında səslənir. Bu hissə mahnının kulminasiyasını təşkil edir. Mahnının iki hissəsində segah və çahargah ladlarının qarşılaşdırılmasını müşahidə edirik. Daha dəqiq desək, "Zabul Segah" və "Çahargah" muğamlarında istifadə olunan "Müxalif" şöbəsinin xüsusiyyətləri burada özünü göstərir.

R.Mirişlinin mahnıları sırasında xalqımızın həyatında mühüm yer tutan milli ənənəvi mərasimlərə də müraciət olunub. "Bayram axşamlarında" mahnısı bu qəbildəndir. Mahnının quruluşunda rəqs elementləri, müşayiətdə yallı rəqsinin ritmlərindən istifadə olunmuşdur.

Bu bölmədə həmçinin, R.Mirişlinin lirik mahnılarının nümunəsində musiqi dilinin xüsusiyyətlərinə nəzər salınır.

"Dalğalar" mahnısının sözləri İslam Səfərlinindir. Bu mahnıda şairin təcəssüm etdirdiyi obrazları bəstəkar incə, kövrək musiqi sədaları ilə açmağa nail olmuşdur. Bəstəkar mahnıda sevgi-məhəbbət hisslərini təcəssüm etdirmək üçün segah məqamına istinad etmişdir.

R.Mirişlinin Fikrət Qocanın sözlərinə yazdığı “Lirik mahnı” adı ilə iki nümunə diqqətəlayirdir. Mahnının janrını, məzmununu və xarakterini təyin edən bu anlayışın başlığa çıxarılması əsərin janr xüsusiyyətlərini qabarıq nümayış etdirir. Bu mahnıların hər ikisi sevgi-məhəbbət mövzusuna, həzin melodik-intonasiya məzmununa və mülayim tempə əsaslanır. Müstəqil musiqi mövzusu əsasında yazılmış bu mahnıların xarakterində və musiqi quruluşunda müəyyən oxşarlıqlar özünü göstərir ki, bu da bəstəkarın lirik musiqi üslubunun xüsusiyyətlərindən irəli gəlir. “Lirik mahnı” adlandırılan əsərlərin musiqisinin belə əhval-ruhiyyədə olması sözsüz ki, mahnının sözlərindən, məzmunundan irəli gəlir. Melodiyaya bu xarakteri vermək üçün bəstəkar bayatı-şiraz və segah ladlarına müraciət etmişdir.

Məhəbbət mövzusundakı “Sevgi gülləri” (sözləri D.Mustafayevindir) mahnısı da bu qəbildəndir. Bu mahnıda bayatı formasından istifadə olunmuşdur. “Sevgi gülləri” mahnısının musiqisi üçün yallı ritminə əsaslanan təntənəli temp seçmişdir. Elə bil mahnını solist deyil, xor qrupu ifa edir.

R.Mirişlinin lirik mahnılarından olan “Səadət” mahnısında (sözləri R.Zəkanındır) məhəbbət, səadət, xeyirxahlıq kimi nəcib, mənəvi hisslər özünəməxsus bir tərzdə qələmə almışdır. Bəstəkar mahnını estrada üslubunda bəstələmişdir. Mülayim tempdə yazılmış bu mahnı instrumental girişlə başlanır. Artıq girişdə bu mahnının ümumi ruhu, əhval-ruhiyyəsi öz əksini tapır. Bəstəkar mahnı üçün bir ritmik formul seçmişdir. Bu sinkopalı ritmik formul estrada ruhlu mahnılar üçün səciyyəvidir. Mahnının əsas kupleti “Bayatı-şiraz”ın intonasiyalarına əsaslanır.

“Oxu bülbül” mahnısının melodiyası olduqca axıcı, oxunaqlı olub, bilavasitə şeirin məzmunundan və vəznindən irəli gəlir. Mahnının musiqisi kədərli, həzin və təsirli xarakter daşıyır. Adətən klassik poeziyada və xalq yaradıcılığında bülbül obrazına çox müraciət edilir. Bəstəkar bu ənənəni davam etdirərək lirik xalq mahnıları ruhunda vokal əsər yaratmışdır. Mahnının musiqi dilinin sadəliyi onun müşayiətinin zəngin akkordlu quruluşu ilə uzlaşaraq, həmahənglik təşkil edir.

R.Mirişlinin əmək mövzusuna həsr etdiyi mahnılardan biri “Qızqayıt” mahnısıdır. “Qızqayıt” mahnısı məzmununa uyğun olaraq, şən, parlaq musiqi ilə səciyyələndirilir. Bu mahnıda xalq melodiyaları üçün xarakterik olan kuplet-nəqərat quruluş prinsiplərindən, bilavasitə sekvensiyalı inkişaf üsullarından istifadə olunmuşdur.

R.Mirişlinin uşaqlar üçün yazdığı “Analar və laylalar” (1987) mahnılar silsiləsi şair Teymur Elçinin sözlərinə yazılmışdır. 7 nömrədən ibarətdir: 1. “Müqəddimə”; 2. “Turacın laylası”; 3. “Qurbağanın laylası”; 4. “Delfinin laylası”; 5. “Kirpinin laylası”; 6. “Canavarın laylası”; 7. “Ana-

mın laylası". Bu nömrələr özlüyündə hər biri balaca bir səhnəciyi xatırladır. Silsilənin ardıcıl ifası da özünəməxsus bir uşaq tamaşası kimi qəbul olunur. Yuxulayan uşağın təsəvvüründə ayrı-ayrı quşların və heyvanların öz balalarına oxuduqları laylalar canlanır, sonda isə bütün bunlar onun öz anasının laylası ilə əvəz olunur.

Silsilənin musiqi məzmunu bir sıra maraqlı xüsusiyyətləri ilə diqqəti cəlb edir. Silsilənin birləşdirən əsas mövzu laylay mövzusudur. Musiqi folklorunun bir janrı olan laylay ənənəvi melodik və metroritmik quruluşa malikdir. Hər bir ananın özəl hisslərinin ifadəsi olan laylaların ümumi birləşdirici cəhəti məhz beşiyin yırğalanmasını əks etdirən ritmik hərəkət və onun melodik inikasıdır. Monoton ritmik quruluşlu, əsasən segah ladına əsaslanan, kiçik diapazonlu melodik ibarələrdən əmələ gələn laylalar, eyni zamanda, hər bir ananın ruhunu canlandırır, öz balası ilə bağlı olan hisslərini, istəklərini təcəssüm etdirir.

Bu cəhətə xüsusilə diqqət yetirən bəstəkar onu uşaq dünyasına gətirir, ananın laylası ilə uyuyan, yuxuya gedən uşaq elə laylay fonunda öz aləmində onu əhatə edən oyuncaq heyvanların canlandığını təsəvvür edir. Laylay intonasiyaları uşağın yuxusunun ayrı-ayrı parçalarını birləşdirən amilə, bir növ, leytmövzuya çevrilir. Silsilənin bütün nömrələri də bu leytmövzunun müxtəlif variantlı şəkillərinə əsaslanır.

"Analar və laylalar" silsiləsinin birinci nömrəsi instrumental müqəddimədir. Burada mövzunun əsası qoyulur. Musiqinin quruluşunda "do" səsi istinad-dayaq pillə əhəmiyyəti kəsb edərək, melodik hərəkəti öz ətrafında cəmləşdirir. Şəffaf dalğavari gedişlərə əsaslanan fakturada arabir pillələrin xromatik dəyişkənliyi işıq-kölgə oyunu ilə diqqəti cəlb edir. Belə bir təəssürat uşağın yuxular aləmini canlandırır. Bundan sonra silsilədə bir-birini əvəz edən nömrələr quşların və heyvanların öz balalarına laylay oxuması ilə bağlıdır. Bu nömrələrdən hər birində laylay leytmövzusu müxtəlif şəklə düşərək, adı çəkilən quşun və ya heyvanın cizgilərini, hərəkətlərini, xasiyyətini əks etdirir.

"Turacın laylası" quşun qanadlarını çalmasını, cükküldəməsini təsvir edir. Bunun üçün bəstəkar 7/8 ölçüyə əsaslanan ritmik quruluşda melodik hərəkəti qabarıq göstərir. "Qurbağanın laylası" nömrəsində melodik hərəkət onun quruldamasını və tullanaraq hərəkət etməsini təsvir edir. "Delfinin laylası"nda instrumental partiya bu dəniz heyvanının yaşadığı mühiti, dənizin dalğalanmasını xatırladan fiqurasiyalı gedişlərdən ibarətdir. Vokal partiya isə daha rəvan hərəkətli olub, bir pillə ətrafında gəzişmədən əmələ gəlir. "Kirpinin laylası"nda xromatik sekundalarla gedişlər bu tikanlı heyvanın surətini canlandırır. Bu fon bütün mahnı boyu saxlanılır. Vokal

partiyanın mövzusu kiçik diapazon çərçivəsində rəvan hərəkətlidir. “Canavarın laylası” isə onun yırtıcı xislətini təmsil etməklə, musiqi məzmunu baxımından digər nömrələrdən fərqlənsə də, bəstəkar burada da ana canavarın balasını əzizləməsini özünəməxsus cizgilərlə təsvir edib. Silsiləni tamamlayan “Anamın laylası”nda yenidən şəffaf xarakterli musiqi quruluşu bərpa olunur. Bu laylay silsilənin müqəddiməsinin musiqi materialına əsaslanır. Bu instrumental epizod sonda da təkrarlanaraq, həm müqəddimədən kodaya tağ kimi mövzu əlaqəsi yaradır, həm silsiləni həzin əhval-ruhiyyədə yekunlaşdırır.

Qeyd etmək lazımdır ki, “Anamın laylası”nın mətni və musiqi mövzusu xalq laylalarına yaxındır. Lakin bəstəkar laylay üçün səciyyəvi olan melodik-intonasiya xüsusiyyətlərinə əsaslanaraq, öz təsəvvüründə yaratdığı laylay melodiyasını canlandırmışdır. Silsiləni təşkil edən mahnılarda alleqorik üsullardan istifadə olunduğunu görürük.

Beləliklə, R.Mirişlinin vokal yaradıcılığının araşdırılması bəstəkarın musiqi üslubunda bu janr xüsusiyyətlərinin dərin təsirini üzə çıxarmaqla, bunun köklərinin xalq mahnı və rəqsləri, aşıq yaradıcılığı və muğamdan gələn xüsusiyyətlərlə dərin tellərlə bağlılığından xəbər verir.

I fəslin üçüncü bölməsi **(1.3.) “R.Mirişlinin kiçik həcmli fortepiano əsərləri” adlanır.** Azərbaycan bəstəkarları öz yaradıcılığında fortepiano musiqisinə müraciət edir, öz əsərlərində alətin ifaçılıq imkanlarını genişləndirirlər. Bu sırada Ramiz Mirişlinin də fortepiano əsərlərini qeyd edə bilərik. Fortepiano musiqisi bəstəkar üçün yaradıcılıq laboratoriyası rolunu oynamışdır. Onun instrumental musiqi sahəsində əldə etdiyi üslub xüsusiyyətlərinin kökləri fortepiano əsərlərində üzə çıxır, həmçinin, bəstəkarın vokal əsərlərindən gələn mahnıvari və muğamvari üslub keyfiyyətləri fortepiano musiqisinə də təsir edir. R.Mirişlinin fortepiano əsərlərinin musiqisində üslub xüsusiyyətləri baxımından maraqlı cəhətlər özünü büruzə verir.

R.Mirişlinin fortepiano prelüdləri bəstəkar tərəfindən əlyazma şəklində təqdim olunmuşdur. İlk dəfə prelüdlər bizim tərəfimizdən təhlil edilmişdir.

1 saylı prelüd sadə üçhissəli formada bəstələnmişdir. Kənar hissələr xarakterinə və musiqi quruluşuna görə orta bölmə ilə təzadlıq təşkil edir. Homofon-harmonik fakturada səslərin hərəkəti xalq rəqslərindən gələn oynaq ritmik xüsusiyyətlərlə birləşərək, əsərin xarakterini qabarıq üzə çıxarır. Birinci bölmə qeyri-simmetrik quruluşlu iki cümlədən ibarətdir. Cümlələr arasında registr təzadlığı özünü göstərir. Belə ki, birinci cümlə I oktavada, II cümlə II oktavada qurulur. Cümlələr arasındakı bu cür bəmzil qarşılaşdırma instrumental xalq musiqisi üçün səciyyəvidir.

R.Mirişlinin 2 saylı prelüdu xarakterinə görə bir qədər fərqlidir. Cəld tempdə ifa olunan bu prelüd skertsosayağı oynaq, şən əhval-ruhiyyəlidir. Musiqi ifadə vasitələri pyesin xarakterini açaraq, dinləyicinin təsəvvüründə maraqlı bir janr səhnəciyini canlandırır. Belə ki, musiqinin dalğavari, yüksələn-enən hərəkət xətti təbiət obrazlarını, çayın axmasını, suyun kənarında əylənən insanları təsvir edir. Melodik quruluşda frazaların təkrarlanması, registr qarşılaşdırmaları böyük rol oynayır. Bayatı-şiraz lad-intonasiyalarına əsaslanan melodik gedişlər simmetrik bölgülüdür, bu da musiqi quruluşuna periodiklik aşılayır. Fortepiano prelüdlərində bəstəkarın polifonik yazı üsullarından məharətlə istifadəsi özünü aydın surətdə göstərir.

R.Mirişlinin fortepiano üçün əsərləri arasında "Altı miniatür" silsiləsi özünəməxsus yer tutur. Bu silsiləni bəstəkar 1975-ci ildə yazmış və öz nəvələrinə həsr etmişdir. Silsilə əsasən uşaqlar üçün nəzərdə tutulsa da, ona orta ixtisas məktəblərinin yuxarı siniflərində təhsil alan pianoçuların müraciət etdiyini qeyd edə bilərik.

Silsilə altı müxtəlif xarakterli, rəngarəng məzmunlu pyeslərdən ibarətdir: "Səhər", "Zarafat", "Rəqs", "Məsxərə", "Qaçdı-tutdu", "Marş". Adlarından da göründüyü kimi, pyeslər həm məzmununa görə, həm də musiqi dili və üslubuna görə bir-birindən fərqlənir. Lakin bu müxtəlifliyə baxmayaraq, onlar ümumi bir musiqi lövhəsinin ayrı-ayrı hissələrini xatırladır və təsəvvürümüzdə şən uşaq həyatını canlandırır. Bu baxımdan silsiləni ümumilikdə uşaqlara həsr olunmuş altı hissədən ibarət mozaikalı tabloya da bənzətmək olar.

Müəllif pyeslərin maraqlı adları ilə janrın şərtiliyini uzlaşdıraraq, uşaq psixologiyasını adət edilmiş hazırcavab oyunlar vasitəsilə açmağa çalışır. Pyeslərin musiqisi incə bədii zövqü, artistizmi, sadə ifadə vasitələrindən istifadə ilə fərqlənir. Ramiz Mirişlinin "Altı miniatür" silsiləsinin məzmunu uşaq həyatından epizodlarla zəngindir. Bundan irəli gələrək, ssilsilədəki pyeslərin musiqisi təsviri xarakter daşıyır və bəstəkarın zəngin təxəyyülü ilə uşaq aləminə münasibətini üzə çıxarır.

Bu bölmədə təhlil etdiyimiz R.Mirişlinin fortepiano pyeslərin musiqi dilindəki milli musiqi xüsusiyyətlərlə bağlı bir sıra cəhətləri ümumiləşdirmişik. Bu pyeslərin melodiyası milli musiqinin lad-intonasiya xüsusiyyətlərinə əsaslanır. Pyeslərin əsas mövzusu əksər hallarda müəyyən bir ladın tonikası ətrafında kadensiya xarakterli melodik frazadan ibarətdir ki, bu da lad-intonasiya inkişafının əsasına çevrilir.

Pyeslərin melodik dili müvafiq milli ladın səssırasına əsaslanmaqla, istinad-dayaq pillələrinin ətrafında qurulur, yarım və tam kadanslar da bu pillələrdə verilir. Melodiyanın inkişafında xalq musiqisinə xas olan inkişaf

üsulları - təkrarlıq, sekvensiyalılıq, variantlıq və variasiyalılıq özünü göstərir. Pyeslərin fakturası şəffafdır, müşayiətdə ostinat fon geniş tətbiq olunur. Melodiyanın harmonik fonu onun quruluşu və lad əsası ilə sıx bağlıdır. Nəzərdən keçirdiyimiz pyeslərdə öz əksini tapmış milli ladlar, melodiyanın improvizə xarakteri, metro-ritmik quruluşu və s. pyesin məzmununun açılmasına yönəldilmişdir.

Beləliklə, I fəslə yekun vuraraq, R.Mirişlinin kamera - vokal və instrumental əsərlərinin bəzi üslub xüsusiyyətlərini qeyd edək. R.Mirişlinin vokal əsərlərinin mövzu dairəsi geniş və çoxcəhətlidir. Musiqi dilində mahnıvari və muğamvari melodik üslub xüsusiyyətləri özünü qabarıq büruzə verir. Mövzudan irəli gələrək, musiqinin melodik və metro-ritmik quruluşunda özünəməxsus təsviri cəhətlər üzə çıxır. Musiqinin əsas ifadə vasitələri – lad əsası, melodik hərəkət və forma quruluşu, metro-ritmik quruluş xüsusiyyətləri, harmonik və polifonik inkişaf xüsusiyyətləri diqqətəlayiqdir.

Dissertasiyanın **II fəsli "Ramiz Mirişlinin yaradıcılığında iri həcmli orkestr əsərləri" adlanır. Bu fəsil üç bölmədən ibarətdir. Fəslin birinci bölməsi (2.1.) "R.Mirişlinin yaradıcılığında simfoniya janrı" adlanır.** R.Mirişli 1970-1980-cı illərdə simfonik musiqi axtarışlarını davam etdirərək, 1974-cü ildə simli alətlər orkestri üçün Simfoniyasını yazmışdır. Bu əsər müəllifin uğurlu, maraqlı və orijinal musiqi əsəri olmaqla, Azərbaycan musiqi irsində layiqli yerini tutmuş və ifaçılıq repertuarına daxil olmuşdur. R.Mirişlinin Simli alətlər orkestri (və ya kamera orkestri) üçün Simfoniyasının ilk ifası Azərbaycan bəstəkarlarının beşinci qurultayının proqramı çərçivəsində olmuşdur. Bu əsər tanınmış dirijor Nazim Rzayevin idarəsilə Q.Qarayev adına Azərbaycan Dövlət kamera orkestrinin təfsirində uğurla səslənmişdir.

Simfoniyanın musiqisindəki bədii obrazlılıq, ifadə vasitələri sahəsindəki yeniliklər diqqəti cəlb edir. Bəstəkar simfoniyada milli musiqinin dərin köklərindən bəhrələnərək, üslub baxımından Azərbaycan xalq musiqisinin prinsiplərinə və müasir bəstəkar təfəkkürünə əsaslanan özünəməxsus, fərqləndirici xüsusiyyətlərə malik əsər yaratmağa nail olmuşdur.

Simli alətlər orkestri üçün Simfoniya üç hissədən ibarətdir. Birinci hissə - Andante – Allegro – sonata formasındadır (işlənmə bölməsi olmayan). İkinci hissə - Lento – sadə üç hissəli formadadır. Üçüncü hissə - Vivo – *rondo* formasına əsaslanır. Bu hissələrin quruluşu klassik formalara əsaslanır, bununla belə, kompozisiya daxilində, mövzuların quruluşunda muğamın inkişaf xüsusiyyətlərinə xas olan cəhətlər özünü göstərir. Mövzuların bir özəkdən yetişməsi, melodik, ritmik, struktur, faktura, orkestr yazısı və s. cəhətlərdən variantlı - variasiyalı dəyişilmələrə uğraması, bunun nəticəsin-

də əmələ gələn mərhələlərlə dalğavari inkişaf qeyd olunmalıdır. Mövzuların strukturunda da xromatik səssırasına əsaslanan muğamvari, improvizasiyalı gəzişmələr üstünlük təşkil edir ki, bu da bəstəkarın musiqi üslubunda müasir yazı üsullarının muğam təfəkkürü ilə uzlaşdırılmasından irəli gəlir.

Simfoniyanın birinci hissəsi sonata formasında yazılmışdır, burada işlənmə bölməsi buraxılır. Ekspozisiyada giriş, əsas və köməkçi mövzuların geniş inkişafa məruz qalması onların simfonik işlənilməsini önə çəkir. Buna görə də bəstəkar işlənmə bölməsindən istifadə etməyərək, dinamik repriza yaratmışdır. Reprizada mövzuların temp göstəricilərinin dəyişdirilməsi maraqlı cəhətlərdəndir. Həmçinin, Andante tempinə əsaslanan bölmənin birinci hissəni çərçivəyə alması, forma quruluşuna özünəməxsus cəhətlər aşılayır. Bu, bir növ, muğamın təmkinlə mayədə başlanıb, geniş inkişaf mərhələlərindən sonra yenidən həmin ruhda tamamlanmasını xatırladır və simfoniyada muğamdan gələn cəhətlər kimi diqqətəlayiqdir.

Simfoniyanın ikinci hissəsi – Lento, silsilənin lirik mərkəzidir. Qeyd etmək lazımdır ki, R.Mirişlinin parlaq melodiyalar yaratmaq qabiliyyəti bu əsərdə qabarıq surətdə özünü büruzə verir. İkinci hissənin əsas mövzusu insanın qəlbinə dərindən nüfuz edən zərif melodiyası ilə diqqəti cəlb edir. Lirik əhval-ruhiyyə musiqi materialının inkişafı böyu və dinamik kulminasiyada da saxlanılır. Qeyd edək ki, belə bir quruluş xüsusiyyəti, muğamvari mövzunun inkişaf etdirilməsi ikinci hissənin emosional təsir qüvvəsini də artırır. Həmçinin, melodiyanın aparıcı əhəmiyyətə malik olması, sadə quruluşlu akkordlarla müşayiət olunması, fakturanın şəffaflığı muğam ifaçılığından gələn xüsusiyyətlər kimi simfoniyanın musiqi dilinə təsir etmişdir.

Simfoniyanın üçüncü hissəsi - final, xalq şənliyini təsvir edən musiqi lövhəsi kimi qavranılır. Musiqi obrazlarının igidliyi, məğrurluğu, coşqunluğu, poetik lirika və xalq səhnələri ilə qovuşaraq, gözümüz önündə rəngarəng bir tablonu canlandırır. Üçüncü hissə simfoniyanın dramaturji yekunu kimi qəbul olunur. Üçüncü hissənin quruluşu *rondo* formasındadır. Lakin bəstəkar burada da klassik formanın xüsusiyyətlərindən istifadə edərək, onu xalq musiqisinin və muğamın inkişaf prinsiplərilə uzlaşdırmışdır. Beləliklə, R.Mirişlinin simli alətlər orkestri üçün Simfoniyası klassik və müasir musiqi xüsusiyyətlərinin milli ənənələrlə qovuşmasında yaranmış maraqlı əsərlərdən biri kimi musiqi irsinə daxil olmuşdur.

**II fəslin ikinci bölməsi (2.2.) "R.Mirişlinin yaradıcılığında konsert janrı" adlanır.** R.Mirişlinin yaradıcılığında iri həcmli əsərlər sırasında bəstəkarın konsert janrında yazdığı əsərlər diqqəti cəlb edir. Bunlardan Tar ilə simfonik orkestr üçün Konsert, xalq çalğı alətləri orkestri üçün Konsertlər üslub xüsusiyyətləri baxımından maraqlı əsərlərdir.

XX əsr Azərbaycan musiqisinin çox orijinal və özünəməxsus sahəsi olan tar konsertləri – tar ifaçılığının inkişafı və təkamülündə zirvələrindən birini təşkil edir. Tarın yeni, virtuoz imkanlarının açılmasında, onun obraz-məzmun dairəsinin genişləndirilməsində məhz tar konsertləri müstəsna rol oynamış, tar ifaçılığının daha yüksək səviyyəyə çatmasına möhkəm zəmin yaratmışdır. Ramiz Mirişlinin 1984-cü ildə yaratdığı tar ilə simfonik orkestr üçün konserti tar konsertləri irsində özünə layiqli yer tutmuş bir əsərdir.

1985-ci ildə Azərbaycan bəstəkarlarının VI qurultayında (solist – Ramiz Quliyev, dirijor – Rafiq Kərimov), 1987-ci ildə Daşkənddə keçirilən Azərbaycan simfonik musiqi gecəsində və Səmərqənddə musiqişünasların III Beynəlxalq simpoziumunda ifa edilmişdir. Konsert Azərbaycan Televiziyası və Radiosunun simfonik orkestri və tarzən Ramiz Quliyev tərəfindən (dirijor Ramiz Məlikaslanov) lentə yazılaraq, radionun qızıl fonduna daxil edilmişdir.

R.Mirişlinin konsertində müəllimi C.Hacıyevin ənənələrinin təsiri duyulur. Musiqi təfəkkürünün simfonikliyi, orkestr partiyasının aydınlığı, mövzuların inkişaflılığı muğama xas inkişaf üsullarının tətbiqi bunu sübut edir. Bu konsertin ən səciyyəvi xüsusiyyəti buradakı silsilədə xalq musiqisinin ən müxtəlif janrlarının – muğam, aşıq musiqisi və rəqs xüsusiyyətlərinin uyğunlaşdırılmasıdır.

R.Mirişlinin tar ilə simfonik orkestr üçün Konserti üç hissədən ibarətdir: I hissə - *Allegro*, sonata formasında yazılmışdır, şad, coşqun əhval-ruhiyyə daşıyır; II hissə - *Rubato* senza metrum, üç hissəli formada olub, təmkinli, lirik rəvayət xarakterlidir III hissə - *Allegro*, Final - *rondo*-sonata formasında bəstələnmiş, xalq şənlikləri ruhunu əks etdirir.

Konsertin partiturası böyük simfonik orkestr tərkibi üçün nəzərdə tutulmuşdur. Onu da deyək ki, tar – milli musiqi aləti kimi simfonik orkestrin fonunda parlaq səslənmə kəsb edir. Bəstəkar həm tarın solo səslənməsinə, həm də orkestr partiturası ilə uzlaşdırılmasına çox diqqətlə yanaşmış və rəngarəng tembr boyaları yaratmağa nail olmuşdur.

Ramiz Mirişlinin tar ilə simfonik orkestr üçün Konserti Azərbaycan musiqisində yaranan bu janrın nümunələri sırasında özünəməxsus yer tutur. Bu konsert tar ifaçılığında bir sıra yeni tapıntılar, zəngin, mürəkkəb harmonik üslubu ilə və bir sıra maraq doğuran ifadə vasitələri ilə seçilir. Bəstəkar burada xalq musiqisinin iki müxtəlif sahəsini – muğam və aşıq musiqisini uyğunlaşdırmağa nail olmuşdur. Konsertdə sərbəst şərh olunan mərhələli inkişaf, əsasən, improvizasiya üslubunun üstünlük təşkil etməsi, orkestrin qənaətcil fakturası fonunda tarzən-solistin aparıcı rol oynaması diqqətəlayiqdir.

Qeyd etmək lazımdır ki, R.Mirişlinin tar ilə simfonik orkestr üçün Konserti ilə yanaşı, bəstəkarın yaradıcılığında Konsert janrının müxtəlif

növlərinə rast gəlirik. Xüsusilə xalq çalğı alətləri orkestri üçün Konsert diqqətəlayiqdir və bəstəkarın yaradıcılıq üslubunun maraqlı xüsusiyyətlərini əks etdirir.

R.Mirişli simfonik orkestrlə yanaşı, xalq çalğı alətləri orkestri üçün də əsərlər yazmışdır. Bu sahədə onun xalq çalğı alətləri üçün Konserti xüsusilə diqqətəlayiq olub, Azərbaycan musiqisini zənginləşdirən əsərlərdən biridir. Konsertin partiturası olduqca koloritlidir. Burada səmimilik, rəngarənglik dinamik səslənmə ilə uyğunlaşır. Bu əsərdə xalq çalğı alətləri orkestrinə daxil olan bütün qrupların bədii və texniki inkanları, tembr xüsusiyyətləri R.Mirişli tərəfindən məharətlə istifadə olunmuşdur. Konsertin quruluşunu əmələ gətirən üç hissədə əsərin ideya-məna mərkəzi, əsas dramaturji xətti və silsilənin yekunlaşdırılması öz əksini tapır. Konsertin obraz məzmunu geniş və çoxcəhətlidir. Burada xalq bayramı şənliyi, dərin düşüncələr və peyzaj assosiasiyaları özünü göstərir. Janr-rəqs sferası birbaşa ardıcıl inkişaf xətti kəsb edir. O, Konsertin bütün hissələrindən keçərək, finalda yeni çalar qazanır. Konsertdə R.Mirişlinin yaradıcılıq üslubunun xarakterik xüsusiyyətləri - obrazların janr-məişət səciyyəsi və təsviriliyi öz ifadəsini tapır. Konsretdə janr-məişət təsviri fon rolunu oynayır. Bu fonda bəstəkarın həyat haqqında, sənətkarın cəmiyyətdəki yeri barədə fikirləri açıqlanır.

Konsertdə yeni bədii səviyyədə xalq musiqi dilinin qanunauyğunluqları öz təcəssümünü tapır. Bəstəkar xalq musiqisinin intonasiya-ritm sistemini və janr-obraz strukturunu geniş surətdə əxz etmişdir. Janr-məişət mövzularında folklorun lad-intonasiya xüsusiyyətləri harmonik dil sayəsində gərginləşir. Burada səslərin paralel səslənmələrindən, çarpazlaşmalarından istifadə edilir. Bəstəkar tembrlərin, rəng çalarlarının seçimində yaradıcı fantaziyasını nümayiş etdirərək, musiqi alətlərini konsert-solo tərzində təfsir etməyə çalışmışdır.

Beləliklə, Konsertin ideya-dramaturji məzmununun yeniliyi təsviri və psixoloji planlı obrazların mürəkkəb uzlaşmasından ibarətdir. Əsərin bütün musiqi quruluşunda yeni cəhətlər özünü göstərir - tematizmin lakonikliyi, tezisliyi, musiqi dilinin bütün komponentlərinin qırılmaz əlaqəsi, kompozisiyanın üslub bütövlüyünü şərtləndirir.

**II fəslin üçüncü bölməsi (2.3.) "R.Mirişlinin müxtəlif iri həcmli orkestr əsərlərində Vətən mövzusu" adlanır.** Bu bölmədə R.Mirişlinin müxtəlif tərkibli və müxtəlif janrlı orkestr əsərlərinin üslub xüsusiyyətlərini nəzərdən keçiririk. Burada böyük simfonik orkestr üçün "Vətən düşüncələri" simfonik poeması, xor və simfonik orkestr üçün "Azərbaycanım" kantatası təhlil olunmuşdur. Bu əsərlər müxtəlif janrlara aid edilsə də,

onları birləşdirən əsas cəhət mövzu ortaqlığı – bəstəkarın yaradıcılığında çox önəmli olan Vətən mövzusuna həsr olunmasıdır.

R.Mirişlinin simfonik əsərləri sırasında "Vətən düşüncələri" simfonik poeması mühüm yer tutur. Bu simfonik poemanı R.Mirişli 1962-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirərkən, diplom işi kimi bəstələmişdir. Bəstəkarın ilk iri həcmli orkestr əsəri olan bu simfonik poema dirijor Nazim Rzayevin rəhbərliyi altında Azərbaycan Dövlət Kamera Orkestri tərəfindən dəfələrlə efirdə səsləndirilmiş və rəğbət qazanmışdır. "Vətən düşüncələri" simfonik poeması 2012-ci ildə çap olunmuşdur.

R.Mirişlinin öz əsərini "Vətən düşüncələri" adlandırmaqla, musiqinin proqramını, obrazlı məzmununu, xarakterini açıqlamışdır. Bu, bəstəkarın təxəyyülündə yaratdığı Vətən obrazı, Vətənin dünəni, bu günü, gələcəyi, insanları, gözəllikləri, möhtəşəmliyi haqqında düşüncələridir.

R.Mirişlinin "Vətən düşüncələri" simfonik poeması böyük simfonik orkestrin üçlü tərkibi üçün yazılmışdır. Əsər simfonik poema üçün ənənəvi olan sonata formasında yazılmışdır. Ekspozisiyada: giriş – *Lento*, əsas mövzu – *Allegro*, köməkçi mövzu – *Adagio (poco rubato)* öz əksini tapır; işlənmə bölməsində mövzuların yerdəyişməsi özünü göstərir: əsas - *Allegro* assai, giriş -*Moderato*, köməkçi - *Adagio (poco rubato)*; repriza qısaldılmışdır - əsas mövzu saxlanılıb - *Allegro assai*, *Allegro molto* - giriş və köməkçi mövzuların elementlərilə dolğunlaşdırılır, koda – *Maestoso* giriş mövzunun elementləri əsasında qurulub.

R.Mirişlinin "Vətən düşüncələri" simfonik poeması bəstəkarın yaradıcılığının birinci dövründə bəstələnsə də, burada artıq bəstəkarın forma duyumu, üslub xüsusiyyətləri özünü büruzə verir. Ənənəvi formanın muğam inkişaf prinsipləri ilə dolğunlaşdırılması bəstəkarın üslub axtarışlarının əsas istiqamətini üzə çıxarır.

R.Mirişlinin yaradıcılığında xüsusilə Vətən mövzusunda yazılmış kantatalar mühüm yer tutur: "Azərbaycanım", "Odlar diyarı", "Doğma diyar" kantataları bəstəkarın yaradıcılığında ən bariz nümunələrdir.

R.Mirişlinin Məmməd Arazın sözlərinə xor və simfonik orkestr üçün "Azərbaycanım" kantatası 1987-ci ildə bəstələnmişdir (partitura 2012-ci ildə çap olunmuşdur). Bəstəkarın yaradıcılığında Vətən mövzusunu davam etdirən əsərlərdən biri olan "Azərbaycanım" kantatası Vətənin möhtəşəm obrazını tərənnümünə həsr olunmuşdur. R.Mirişlinin vətən sevgisi, vətəndaşlıq mövqeyi bu əsərdə öz parlaq təzahürünü tapmışdır.

Kantata birhissəlidir, onun daxilində klassik kantata janrına xas olan xüsusiyyətlər - ənənəvi hissələrin təzadlıq prinsipi ilə ardıcıllaşması özünü göstərir. Əsərin kompozisiya quruluşu bir neçə təzadlı bölmədən ibarət

olub, həm musiqinin xarakteri və emosional təsiri, həm də musiqi dilinin xüsusiyyətləri – lad-tonallıq, melodik və metroritmik cəhətlərinə görə fərqlənir. Lakin buna baxmayaraq, bunlar əsərin kompozisiyasının mütənasib qurulmasında və ardıcıl olaraq məzmunun açılmasında mühüm rol oynayır.

Kompozisiyada bölmələrin ardıcıllaşması bu şəkildədir: I bölmə - *Moderato*, II bölmə - *Allegro*, III bölmə - *Moderato*, IV bölmə - *Commodo*, V bölmə - *Allegro*, VI bölmə - *Meno mosso*, VI bölmə - *Maestoso*.

Kantata xor və simfonik orkestrin üçlü tərkibi üçün nəzərdə tutulmuşdur. Burada xor və orkestr vəhdətdə, daimi dialoqda, homofon-harmonik fakturada, gah da polifonik üsullarla qarşılıqlı inkişafda verilərək, partituranın dolğun səslənməsinə xidmət edir. R.Mirişlinin kantatasının səciyyəvi üslub cizgiləri vokal və instrumental hissələrə xas olan mahnıvarilikdən ibarətdir. Bundan əlavə, bütün vokal epizodlar xalq mahnıları ruhundadır.

Poetik mətnin eyni melodik frazalar əsasında təkrarlanması, musiqiyə monotonluq gətirmir, əksinə, xor partiyalarında özünü göstərən səsaltı polifonik inkişaf, ayrı-ayrı partiyalarda melodiyanın rəngarəng ritmik quruluşa malik olması səslənməni zənginləşdirir. Kantatada melodik hərəkət variasiyalı şəkildə dəfələrlə təkrar olunaraq, xor partiyalarında müxtəlif şəkil alır və bu da mövzunun polifonik inkişafında böyük rol oynayır. Kantatanın musiqi materialında bu kimi polifonik inkişaf məhz kulminasiyadan sonrakı yekunlaşdırıcı epizodda özünü göstərir.

Kantatanın hər yeni bölümü əsas mövzudan fərqlənən, lakin onun elementləri üzərində qurulmuş bir mövzuya əsaslanır. Kantatanın mövzuları bir özəkdən yetişir və bir-birinə kontrastlıq təşkil etmir. Əsas mövzu enən və yüksələn hərəkətli olub, möhkəm lad-tonallıq əsasına malikdir. Tonika səsinin dəfələrlə təkrarlanmasından sonra melodiya mayədə dayanır. Melodiyanın quruluşunda yüksələn və enən kvarta gedişləri mühüm yer tutur. Kantatanın birhissəli kompozisiya quruluşunda xarakterinə və ifa xüsusiyyətlərinə görə təzadlı bölmələrə ayrılma ilə yanaşı, lad-tonallıq baxımından reprizalılıq ona üçhissəli quruluşa xas olan cəhətlər gətirir ki, bu da kompozisiyaya bütövlük aşılayır.

Beləliklə, II fəsli yekunlaşdıraraq, qeyd etmək istərdik ki, R.Mirişlinin iri həcmli orkestr əsərlərində bəstəkarın musiqi üslubunun əsas cəhətləti – klassik forma duyumu və onun muğam inkişaf prinsiplərilə dolğunlaşdırılması, melodik özəklərin variantlı təkrarlanmalarına və variasiyasına əsaslanan işlənmə xüsusiyyətləri, muğama xas olan mərhələli inkişafın simfonik əsərlərdə kompozisiyanın əsas quruluş prinsipinə çevrilməsi, milli musiqinin lad-intonasiya əsaslarının müasir yazı texnikası ilə qovuşdurulması və s. üzə çıxır.

**Dissertasiyanın Nəticə bölməsində aparılan tədqiqata yekun vurulur.** R.Mirişlinin yaradıcılığının tədqiqi, onun əsərlərinin musiqi dilinin araşdırılması və milli musiqi mənbələrilə müqayisəli təhlilin aparılması ümumiləşdirmələrə imkan verir.

R.Mirişlinin yaradıcılıq üslubu simfonik, kamera və səhnə tiplərinin məhsuldar sintezini təşkil edir. Bu səbəbdən onun əsərlərində böyük bədii gücü ilə fərqlənən parlaq xarakterlər özünü göstərir. Bəstəkarın yaratdığı obrazların xarakteri, onların təcəssüm etdirilməsi üsulları, dramaturji inkişaf, tematizmin xüsusiyyətləri, formaları və bəstəkarın yaradıcılıq üslubunun digər məqamları bu haqda danışmağa imkan verir.

R.Mirişlinin musiqisi öz dilinə, psixoloji təsir qüvvəsinə görə dərin milli ruhludur. Onun yeni və köklü musiqi intonasiyasının xarakterində milli və orijinal xüsusiyyətlər təzahür edir. Azərbaycan xalq musiqisinin monodik quruluşu bəstəkarın musiqisinin tematizmini və formalaşma prinsiplərini müəyyən edən mühüm amil kimi özünü göstərir. R.Mirişlinin yaradıcılıq üslubunun formalaşmasında onun muğam sənəti ilə, xalq musiqisi ilə dərin tellərlə bağlılığı və bunu bəstəkarlıq qanunları ilə qovuşdurması böyük rol oynamışdır. Bəstəkar özünəməxsus üsullarla Azərbaycanın milli, klassik peşəkar ənənələrini bacarıqla üzə çıxarır.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Bəstəkar Ramiz Mirişlinin yaradıcılıq cizgiləri. // "Mədəni maarif" jurnalı, №12, Bakı – 2011, s.14-16

2. Ramiz Mirişlinin yaradıcılıq üslubunun əsas cəhətləri. // www.musigi-dunya.az, Bakı, 2011

3. Ramiz Mirişlinin mahnılarının üslub xüsusiyyətləri. / Doktorant və gənc tədqiqatçıların XVII Respublika Elmi Konfransı. Bakı, 2013, s. 255-256

4. Ramiz Mirişlinin müxtəlif janrlı əsərlərində Vətən mövzusu. // www.harmony.musigi-dunya.az, Bakı, 2014

5. Ramiz Mirişlinin yaradıcılığında konsert janrı. // www.harmony.musigi-dunya.az, Bakı, 2014

6. Ramiz Mirişlinin yaradıcılığında mahnı janrının rolu. / Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. / Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XIII Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2014, s.49-50

7. Ramiz Mirişlinin musiqi üslubunun milli qaynaqları. / IX. İnternational turkic culture, art and protection of cultural heritage symposium/art activity. İtaliya-Verona, 2015

8. Взгляд на творческий стиль Рамиза Миришли. // Rast Uluslararası Muzikoloji Dergisi. III cilt, Sayı 2. Türkiyə, 2015.

9. Ramiz Mirişlinin yaradıcılığında simfoniya janrının təfsiri. // Konservatoriya jurnalı. N 3(29), Bakı, 2015

**Наиба Магсуд гызы Шахмамедова**

# «Особенности стилистики композиторского творчества Рамиза Миришли»

## РЕЗЮМЕ

Народный артист Азербайджанской Республики Рамиз Миришли - композитор, соединивший в своей многосторонней творческой деятельности традиции национальной и мировой музыки, создал свой оригинальный творческий стиль. В творчестве Р.Миришли представлены многие жанры и формы музыкального искусства: это – оперетты, кантаты, симфонические – в т.ч. концерт для тара и симфонического оркестра, произведения для оркестра народных инструментов, камерно-инструментальные, фортепианные, вокальные сочинения, музыка к театральным спектаклям и фильмам. В сочинениях Р.Миришли ясно ощущается богатейшая интонационная природа народно-национального искусства, ставшего ведущим выразительным средством для воплощения сложного мира человеческих чувст. Такой сплав индивидуальных, национальных и классических черт, включая отдельные выразительные средства музыки XX века в целом, становится ведущим способом музыкального высказывания, характерным для творчества Р.Миришли.

Диссертация состоит из введения, 2-х глав, заключения и библиографии.

**I глава диссертации – «Жизнь и творчество Рамиза Миришли» - состоит из трех разделов: 1.1. – «Творческий путь Рамиза Миришли»; 1.2. – «Характерные черты музыкального языка песен и романсов Рамиза Миришли»; 1.3. – «Фортепианные пьесы малой формы Рамиза Миришли».**

**II глава диссертации – «Оркестровые произведения крупной формы Рамиза Миришли» - состоит из трех разделов: 2.1. – «Симфонический жанр в творческом наследии Рамиза Миришли»; 2.2. – «Концертный жанр в творчестве Рамиза Миришли»; 2.3. – «Тема Родины в различных крупных оркестровых произведениях Рамиза Миришли».**

**В заключении** даются выводы и обобщения проведенного музыкального анализа

**Naiba Maqsud Shahmammadova**

**“The creative style of Ramiz Mirishli”**

**SUMMARY**

The People's Artist of Azerbaijan Republic RamizMirishli - composer, combining in his creative work the multilateral tradition of national and world music, creating his own original creative style. In the creativity of R.Mirishli is presented many genres and forms of musical art: they are - operettas, cantatas, symphonic music - including concerts for tar and orchestra, works for orchestra of folk instruments, as well as chamber music, piano and vocal works, music for theater performances and films. In the works of R.Mirishli clearly felt rich intonation nature of national art, which has become a leading expressive means of incarnation of the complex world of human feelings. Such an alloy of individual, national and classical features, including individual means of expression of music of the XX century as a whole, is the leading way of musical expression, characteristic for creativity of R.Mirishli.

The dissertation consists of introduction, 2 chapters, the conclusion and the bibliography.

**I chapter of the dissertation – “The Life and works of Ramiz Mirishli” - consists of three sections: 1.1. – “The Creative way of Ramiz Mirishli”; 1.2. – “The characteristics of the musical language of songs and romances of Ramiz Mirishli”; 1.3. – “The Piano pieces of small form of Ramiz Mirishli."”.**

**II chapter of the dissertation – “The Orchestral works of a big form of Ramiz Mirishli” - consists of three sections: 2.1. – “The Symphonic genres in the artistic heritage of Ramiz Mirishli”; 2.2. – “The Concert genre in the works of Ramiz Mirishli”; 2.3. – “The Subject homeland in various orchestral works of Ramiz Mirishli”.**

**In conclusion** is given inference and generalisations of musical analysis.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**
**имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**НАИБА МАГСУД гызы ШАХМАМЕДОВА**

# «Особенности стилистики композиторского творчества Рамиза Миришли»

6213.01 – Музыкальное искусство

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**Баку – 2016**